# Müasir media yalanları ifşa etməlidir

Bu gün qloballaşan, durmadan inkişaf edən dünyanın sakinləriyik. Zaman durmadan irəliləyir, elm-texnika inkişaf edir, hər bir sahə üzrə yeni layihə və qərarlar qəbul edilir,gələcəyə doğru daha da təkmiləşmiş yeni metodların tətbiqi haqqında fikirlər diqqətdə qalır. XXI əsr inkişaf etmiş texnologiyalar və informasiyaya dair tələblərin müəyyənləşdirilməsi, sistemləşdirilməsi dövrüdür. Durmadan sürətli inkişaf yolunda irəliləyən dünya mediası bu gün operativ və düzgün məlumatların, informasiyaların çatdılılmasında, ötürülməsində mühüm işlər görməkdədir.

Bu gün müasir media, medianın üzərinə düşən məsuliyyət və vəzifə diqqətdə saxlanılan aktual mövzudur. Bildiyimiz kimi, 20 iyul tarixində "Yalan məlumatların ifşası: Dezinformasiyaya qarşı mübarizə" mövzusunda 2-ci Şuşa Qlobal Media Forumunun açılış mərasimində prezident İlham Əliyev çıxışında mövzuya aydınlıq gətirmişdir. Dövlət başçısı əllidən artıq ölkəni təmsil edən nümayəndələrə sualları cavablandırmaqla Azərbaycanın müstəqil, tolerant, demokratik, süveren dövlət olaraq daxili və xarici siyasəti haqqında geniş məlumatları çatdırmış, bu gün inkişaf etmək, doğru hədəfə çatmaq və bu istiqamətdə medianın üzərinə böyük məsuliyyətini vurğulamışdır. Dövlət başçısı bir daha qeyd etmişdir ki, bu gün Azərbaycan haqqında beynəlxalq mediada yayılan məlumatlar həqiqət deyil, yanlış fikirlər, reallığı əks etdirməyən faktlar, bir sözlə faktların manipulyasiyası mövcuddur. Azərbaycan bu illər ərzində yalan və dezinformasiyanın qurbanına çevrilmişdir. Bütün bunlar birtərəfli mövqe tutanlar, həqiqəti ört-basdır edənlər, Ermənistanın Azərbaycana qarşı hərtərəfli şəkildə yönəldilmiş düşmən siyasətini dəstəkləyən qüvvələrin planının böyük bir hissəsidir.

Forum çərçivəsində dövlət başçısı 30 il işğal altında qalan Azərbaycan torpaqlarının vandallığa məruz qalması, Qarabağdan yerli əhalinin məcburi didərgin düşməsi və bütün bu kimi təcavüzlərə məruz qaldığımız halda ABŞ-ın 1992-ci ildə Azərbaycana qarşı sanksiya tətbiq etməsi, baş verənləri düzgün qiymətləndirməməsi, birtərəfli mövqe tutması və bununla da media obyektivliyinə ciddi xələl gətirdiyinə aydınlıq gətirmişdir. Bütün bunlar Azərbaycanın üzərinə kölgə salır, nüfuzunu ləkələməyə çalışır. Əlbəttə illərlə erməni diasporunun əhatəsinin genişliyi, maliyyəsi Azərbaycan haqqında həqiqətləri saxtalaşdırıb dünyaya çatdırılması işində "böyük əmək" sərf edib. İllər ərzində bu siyasət Azərbaycanı nüfuzdan salmağa çalışıb, məqsədyönlü şəkildə dezinformasiya etməklə iqtisadi yüksəlişə, dinamik inkişafa, hərtərəfli nailiyyətimizə,bir sözlə dövlətimizə, xalqımıza qarşı mənfi fikirlərin formalaşmasına rəvac verib.

Azərbaycan bü gün bu istiqamətdə mübarizəsini aparır, dezinformasiyalara qarşıdır, yalansız və qüsursuz medianı dəstəkləyən dövlət kimi mövqeyini açıq şəkildə bidirir. Vaxtilə bu kimi saxtalıqların qurbanı olmuş Azərbaycan media meydanında mübarizəsini aparır, həqiqəti, reallığı əks etdirən informasiyaları dəstəkləyir. Əlbəttə media hər bir sahədə informasiyanın ötürülməsində, məlumatların vaxtında və anındaca çatdırılmasında müstəsna xidmət göstərir. İkinci Qarabağ Müharibəsi zamanı hərtərəfli düzgün informasiyanın dünya mediasına çatdırılması da böyük əhəmiyyət kəsb etdi. Bu maneələri aradan qaldırmaq lazımdır ki, hərtərəfli şəkildə media qüsursuz inkişaf etsin. Çünki bu son zamanlar əhalinin, o cümlədən dünyanın tələbidir. Media inkişaf etməlidir, ona görə ki, tələbat da böyükdür. Bu gün müasir dövrün çağırışlarına uyğunlaşdırılmış təcrübəyə əsasən hər bir media nümayəndəsi üzərinə düşən işi layiqincə görməyə vadar edir. Hər bir dövlət və onun mediası düzgün istiqamətdə müntəzəm şəkildə obyektiv şəkildə çalışmalıdır. Yüksəlişə getmək, uğurlar qazanmaq, iqtisadi, siyasi sahədə nailiyyətlər üçün müasir media yalanları ifşa etməlidir. Çünki, bu dövrün və qanunun tələbidir.

**İlhamə SEYİDOVA,**
**Qəbələnin ştatdankənar müxbiri.**

# Söz həyatın ifadəsidir

**Ürəyin aynası**

Hər bir deyilən söz ürəyin hökmüdür. Əgər söz ürəkdən gəlməzsə o dilə ötürülməz. Ürək isə gözün aynasıdır. Göz gördüyünü ağıl öz süzgəcindən keçirir və ürəyin diktəsi ilə dilə ötürür. Dil isə ünsiyyət vasitəsidir, söz də anlayışın ifadəsidir. Ürəyin hər döyüntüsü söz dənizinin məskənidir. Sözlər isə ağıl süzgəcindən keçərək insanın daxili aləminin apaydın görünməsinə bir mənbədir. Axı insan geyimi ilə deyil, sözü ilə tanınar və qiymətlənidirilər. Demək ünsiyyət vasitəsi olan dildirsə, söz də anlaşmanın ifadəsidir.





İnsanlar da sözlərinin ifadəsi ilə öz xarakterini biruzə verərlər. Sözün o qədər məna çalarları var ki... Ən başlıcası isə söz həqiqət carçısı olmalıdır. Söz həm eşitmə, həm də görmənin ifadəçisidir. Ən doğru söz göz ilə görülənləri ağıl ilə ifadə etməkdir. Buna isə gerçəklik deyilir.

Söz doğmaların, əzizlərin bir-birinə istəyinin, nifrətinin, sevgisinin, ayrı-ayrı ölkələr arasında daxili və xarici siyasətinin ifadəçisidir. Uğurların, zəfərin, məğlubiyyətin, insan ömrünün bu gününün, dünəninin, sabahının yaşam inikası, əsaslı sənədidir. İnformasiya vasitələrinin ifadəçiləri isə söz adamlarıdır. Qəzet, jurnal, kitab məhz sözlərlə ifadə olunmuş bir həyati sənədlərdir. Televiziya verlişləri, sosial səhifələr sözlərin əsasında mövcuddur. Ən başlıcası isə sözün məhz öz yerində, məkanında, məqamında doğru və düzgün deyilməsidir.

Məhz söz doğru deyiləndə əhəmiyyəti daha böyük olur. Məhz milli mətbuatımız olan "Əkinçi"dəki kimi. 149 il əvvəl deyilən söz, yazılan ifadətmələr bu güb üçün də aktualdır. Məhz buna görə də 91 illik fəaliyyət tarixi olan "Qəbələ" qəzeti də "Əkinçi" yə söykənərək öz fəaliyyətini davam etdirir.

**Rayon mətbusu**

1933-cü ildə "Qəbələ" qəzetinin ilk nömrəsi yaradıldı. Müxtəlif adlarla nəşr olunan bu mətbu orqanı xalqın yaşayış tərzinin güzgüsünə çevrildi.

Qəzet fəaliyyət göstərdiyi dövrlərdə 4 adla buraxılmışdır. 1933-1952-ci illərdə "Bolşevik Mübarizi", 1953-1962-ci illərdə "Mübariz", 1966-1990-cı illərdə "Qalibiyyət" adilə nəşr olunmuşdur. 1963-1965-ci illərdə rayonların birləşməsi ilə əlaqədar Göyçayda (Ağdaş rayonunda çıxan "Əmək" qəzeti də daxil olmaqla) "Yeni həyat" adı ilə üç rayonun birləşmiş qəzeti kimi nəşr olunmuş, 1962-ci ildə isə Şəkidə nəşr olunan "Lenin bayrağı" qəzeti adı ilə birləşmişdir.

"Qalibiyyət" adı ilə oxuculara təqdim olunan qəzet 1990-cı ildən etibarən "Qəbələ" adı ilə nəşr olunur.

Qəzetin fəaliyyəti dövründə onun işıq üzü görməsi bu günədək yaşaması üçün onun redaktorlarının əməli fəaliyyəti təqdirəlayiqdir. Hər dövrün özünə məxsus çətinlikləri, problemlərinə rəğmən rayonumuzun yeganə mətbu orqanı onların rəhbərliyi ilə bu günədək, müntəzəm olaraq rayon həyatını "tarixləşdirmişdir". Qəzetimizin ilk redaktoru 1933-cü ildən 1937-ci ilin may ayınadək Nəriman Həsənov olmuşdur. Nəriman Həsənov may ayında rayonun, partiya komitəsinin birinci katibi işləyən Kazım Vəliyev ilə birlikdə dəhşətli represiyanın qurbanı olmuşdur.

Əhmədağa Hacıyev, Baba Qəhrəmanov, Canan Şirinov, Ramazan İsmayılov, Əziz Əzizov, Tacəddin Şahdağlı, Nadir Atakişiyev, Oktay Məmmədov, Varis Yaqubov müxtəlif illərdə qəzet redaktoru işləmişlər.

Qəzet əməkdaşları öz materialları ilə rayon həyatını hərtərəfli işıqlandırmağa çalışmışlar. Tanıdığım əməkdaşlar arasında Nailə Mirzəyeva, Nadir Atakişiyev, Qüdrət Səmədov, Zahid Əfəndiyev, Valeh Əzizov, Nazlı Ağayevanın imzaları yəqin ki, oxucularımıza tanışdır. Onların qələmindən çıxan hər bir yazı qəzet üslubunda müxtəlif janrlarda yazılmışdır və oxucu rəğbəti qazanırdı. Çünki bu əməkdaşlar qəzeti əsil həyat aynası kimi əhaliyə tanıdırdılar.

Öz iş təcrübəmə əsasən deyə bilərəm ki, 1980-1990-cı illərdə qəzet oxucu kütləsinin başlıca informasiya vasitələrindən biri idi. Qəzet həmişə canlı faktlara istinad edirdi və qəzetin fotomüxbiri Səhrab Umiyev canlı görüntüləri qəzetin səhifələrində tarixləşdirirdi. Qəzet illərlə həftədə 3 dəfə 4000-6000 nüsxə ilə nəşr olunurdu. Qəzet həyatın əsil güzgüsü kimi fəaliyyət göstərirdi. Həm respublika ölkədaxili xəbərlər, daxili və xarici siyasət, mədəniyyət, kənd təsərrüfatı, iqtisadiyyat və s. qəzet səhifələrində geden materiallarda əks olunurdu. Rayonumuzun isə tam mənada demək olar ki, hərtərəfli şəkildə bu yerli mətbu orqanında əks olunurdu. Respubikamızın müxtəlif rayon redaksiyaları və təşkilatlarına, kitabxanalara, qəzetimizin nüsxələri

(Ardı 8-ci səhifədə).

# Tarixi salnamənin milli yaradıcısı



Jurnalistika böyük zəhmət, xüsusi səy, professional yanaşma, hadisələri operativ qiymətləndirmək və prosesləri düzgün analiz bacarığı tələb edən sənətdir.

Heydər Əliyev.

Azərbaycan jurnalistikası gerçək hadisə, nəzərdə tutulan mənbə və kadr haqqında məlumatın alınması, emal olunması və geniş oxucu kütləsinə təqdim edilməsi kimi əhatəli şəkildə həyata keçirlən milli mətbuat və jurnalistikasının yalnız informasiya deyil, həm də azad söz vətəndaş cəmiyyəti, müstəqil dövlət uğrunda mübarizə vasitəsi olmuşdur.

Milli mətbuatımızın yaradıcısı Həsən bəy Zərdabi demişdir: «Hər bir vilayətin qəzeti gərək ol vilayətin aynası olsun, yəni ol vilayətin sakinləri elədiyi işlər, onlara lazım olan şeylər, xülasə, onların hər bir dərdi və xahişi ol qəzetdə çap olunsun ki, ol qəzetə baxanda xalqı aynada görən kimi görsün».

Həsən bəy Zərdabi kimdir?

Həsən bəy Zərdabi Məlikov 1837-ci il noyabrın 12-də Zərdab kəndində anadan olmuşdur. İlk təhsilini mədrəsədə almış, ərəb və fars dillərini öyrənmiş, sora isə Tiflis gimnaziyasında təhsil almışdır. 1861-ci ildə Moskva Universitetinin fizika-riyaziyyat fakültəsinə daxil olmuşdur. Təhsilini başa vurduqdan sonra Azərbaycana qayıdaraq dövlət işlərində çalışmışdır.

O, 1875-ci ildə, 22 iyulda «Əkinçi» qəzetinin nəşrə başlamasına nail oldu: Düz 145 il əvvəl, həm də ana dilində. Çəkdiyi əziyyətlərin bəhrəsi olan «Əkinçi» qəzeti bir çox ziyalıları birləşdirdi, dövlətin nəbzini tutan yazılar qəzet səhifəsində yer aldı. Ancaq qəzet 1877-ci ilin 29 sentyabrına kimi çap olundu. «Əkinçi» ayda iki dəfə 300-400 tirajla nəşr edilib. Bu vaxt ərzində qəzetin 56 nömrəsi işıq üzü görmüşdür.

Qəzetdə N. Vəzirov, S. Ə. Şirvani, M. F. Axundov və s. öz yazıları ilə çıxış etmişlər. Qəzetin nəşri dayandırıldıqdan sonra «Ziya», «Kəşkül», «Kaspi» və digər qəzetlərdə öz mübarizə və ənənələrini davam etdirmişdir.

Mətbuatın ictimai-siyasi faydasını, onun sosial-siyasi əhəmiyyətini qiymətləndirən, H. Zərdabinin yaradıcılıq ənənələrini davam və inkişaf etdirən Azərbaycan mühərrirləri vətənpərvər mühərririn ideyalarını, jurnalistikaya dair elmi-nəzəri görüşlərini yeni dövrə uyğunlaşdırdı və təkmilləşdirdi, milli mətbuatşünaslığın yaranmasına nail oldular. Həmin elmi-nəzəri düşüncə təcrübəsi, tarixi həqiqətlər arsenalı və milli yaddaş aydınlığı Azərbaycan medialogiyasının qaynaqları kimi mühüm əhəmiyyət daşıyır. Həmçinin onun metodoloji əsaslarını müəyyənləşdirmək üçün istinad nöqtəsi rolunu oynayır. Yüzlərlə mətbuat orqanı vasitəsi ilə görülən işin, yaşanan təcrübənin, xüsusilə sovet dövrü radio və telejurnalistikasının zəngin yaradıcılıq ənənələrinin öyrənilməsi media mühitimiz üçün son dərəcə gərəklidir.

Həyatını Azərbaycanın müstəqilliyi və bu müstəqilliyin qorunub saxlanılması, dövlətçiliyimizin daha da möhkəmləndirilməsi uğrunda mübarizəyə həsr edən insanların işinin bu gün də uğurla davam etdirilməsi, onların əməli işinin yaşadılması bizi milli mətbuat və jurnalistika tariximizin zənginliyini öyrənməyə və öyrətməyə bir daha sövq edir. Odur ki, intellektual dəyərlərimizə, xalqımızın elmi-mədəni və mənəvi zənginliyinə varis olmağı bacarmalıyıq. bu yolda hər bir ziyalı, qələm sahibi fikri, sözü, əməli işilə birgə dövlətimizə xidmət etməlidir.

Həsən bəy Zərdabi demiş: «Hər bir vilayətin qəzeti gərək ol vilayətin aynası olsun!»

Həsən bəy Zərdabi ənənələrini - «Əkinçi»nin ideyalarını yaşatdığı üçün bu gün rayonumuzun yeganə mətbu orqanı olan «Qəbələ» qəzeti öz fəaliyyətini davam etdirir.

**Afət İSRAYILOVA,**
**Azərbaycan Dillər Universitetinin Fəlsəfə və İctimai elmlər kafedrasının müəllimi.**